**R.V.VƏKİLOVA**
*baş müəllim*
*e-mail: ruba.vekil@mail.ru*
:https://orcid.org/0009-0002-4486-708X

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2024.4.172

# MÜHARİBƏDƏN SONRAKI İLK İLLƏRDƏ QƏRBİ ALMANİYADA DRAMATURGİYANIN ƏSAS MÖVZU DAİRƏSİ

***Xülasə.*** *Məqalə müharibədən sonrakı dövrdə Almaniya Federativ Respublikasında ədəbiyyatın, xüsusən dramaturgiyanın inkişaf xüsusiyyətlərinə həsr edilmişdir.*
*Burada II Dünya müharibəsindən sonra Almaniyanın ictimai-siyasi vəziyyəti və ədəbi mühiti nəzərdən keçirilir. Bu dövrün ədəbi əsərlərində müharibə zamanı və müharibədən sonrakı hadisələr insanların üzləşdiyi çətinliklər təsvir edilmişdir. Yaşananlar başqa janrlar kimi dram janrının inkişafına da öz təsirini göstərmişdir. Məqalədə dram əsərlərinin ədəbi xüsusiyyətlərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.*
*Karl Tsukmayerin, Bertolt Brextin, Volfgang Borxertin, Fred Dengerin, Hansjörq Şmittenerin müharibə və antifaşist ruhda yazılmış dramları o dövrün dramaturgiyasının inkişafında mühüm rol oynamışdır.*

***Açar sözlər:*** *müharibə, dram, Qərbi Almaniya, faşizm, daxili mühacirət*

Almaniya parçalandıqdan sonra, şübhəsiz ki, təkcə ictimai-siyasi, sosial-iqtisadi vəziyyət deyil, həm də onların ədəbiyyatları da müxtəlif formalarda yaranıb inkişaf etməyə başladı. Şərqi Almaniyanın ədəbiyyatı elə ilk günlərdən “İlk fəhlə-kəndli dövlətinin” idealogiyasının təsiri altına düşərək “sosializm realizmi” adlanan saxta bir metodla “yeni insan tərbiyəsindən”, “yeni cəmiyyət quruculuğundan” dəm vurduğu dövrlərdə, Qərbi Almaniya ədəbiyyatı bəşəri dəyərləri özündə təcəssüm etdirən yeni məzmun və forma axtarışına başladı və Almaniyanın yenidən birləşdiyi dövrə qədər 40 il ərzində ziddiyyətli, maraqlı bir inkişaf yolu keçərək beynəlxalq nüfuz qazandı. Bu nüfuz da, hər şeydən əvvəl, onun humanist, demokratik ruhu ilə bağlı idi.

Bəs Qərbi Almaniya ədəbiyyatının az bir zaman ərzində dünya şöhrəti qazanmasının sirri nədədir? Şübhəsiz ki, tarixi yaddaşda!! Faşizmin vəhşiliyi, nasist terroru, onlara qarşı yaranan müqavimət hərəkatı, nəinki dünyanın çox hissəsinin, həm də öz ölkəsini xarabazara çevirən müharibə və onun acınacaqlı, faciəli sonluğu, məğlubiyyətin ilk illərindəki fiziki, mənəvi şikəstlik, ümidsizlik, aclıq, səfalət yalnız həmin dövrü yaşayan adamları deyil, həm də sonrakı nəslin yaddaşına əbədi həkk olunmuşdu. Yaddaşdan-yaddaşa, nəsildən nəsilə ötürülən bu dəhşətlər insanları həmişə düşünməyə, səbəbkarı, günahkarı, əbədi həqiqəti axtarmağa vadar etdi. Məhz həmin insanlar – bəşəri dəyərlər sorağında olanlar AFR yazıçılarının qəhrəmanlarına çevrildilər. Başqa sözlə desək, keçmişin acı təcrübəsinə əsaslanan Qərbi Almaniya yazıçıları zülmət dolu keçmişi müasir dövrün işığı ilə işıqlandırmağa çalışmış, ümidsizlik içində çabalayan, lakin bütün dəhşətlərə, çətinliklərə baxmayaraq, bir parça həyat işartısının hərarətinə qızınmağa çalışan insanların poblemlərini, psixologiyasını ön plana çəkmişlər.

Qərbi Almaniya ədəbiyyatı öz inkişafında üç mərhələ keçmişdir. Birinci mərhələ hələ Almaniya Federativ Respublikasının yaradıldığından əvvəlki dövrü 1945-1950-ci illəri əhatə edir. Həmin dövrdə yenicə formalaşmağa başlayan bu ədəbiyyatın əsasını hər şeydən əvvəl mənəvi böhran, ümidsizlik, çaşqınlıq təşkil edirdi. Onun əsas aparıcıları “daxili mühacirətdə”

yaşamış, daha dəqiq desək, Hitlerin hakimiyyəti dövründə Almaniyanı tərk etməyən, yazdıqları və çap etdikləri əsərləri qismən də olsa faşist rejimi ilə müxalifətdə olan yazıçılar idi. Bu illərin ən maraqlı əsərləri H.Kazakın "Çayın o tərəfindəki şəhər", H.E.Nossakın "Ölümlə müsahibə" əsərləridir. Burada əsasən faşizm və müharibə dövründə ziyalıların müəyyən dairəsinin mənəvi-əxlaqi durumunun təsviri ön plana çəkilirdi. Lakin bununla bərabər müharibənin dəhşətlərini, onun çətinliklərini bütün ağırlıqları ilə öz çiyinlərində hiss etmiş və buna görə də daha çox gerçəkliyə əsaslanan gənc yazıçılar nəsli də (V.Borxert, V.Şnurre, H.Böll, Z.Lents) məhz bu dövrdə yetişmişlər.

Qərbi Almaniya ədəbiyyatının inkişafının ikinci mərhələsi 1949-cu il sentyabrın 7-də Almaniya Federativ Respublikasının yarandığı vaxtdan 1968-ci ilə qədər olan dövrü əhatə edir. Bu mərhələdə ədəbiyyat çox ziddiyyətli olmuşdur. Xüsusilə 50-ci illərdə Adenauer hökumətinin 1955-ci ildə NATO-ya daxil olması, 1956-cı ildə ümumi hərbi mükəlləfiyyət haqqında qanunun çıxarılması, 1958-ci ildə "lazım olan hallarda" demokratik azadlıqları məhdudlaşdıran "fövqəladə qanunların" hazırlanması və s. İkinci mərhələdə AFR ədəbiyyatının inkişaf istiqamətini müəyyənləşdirən əsas amillər olmuşdur. Bütün bunlarla bərabər ədəbiyyatda sosial-tənqidi və humanist-demokratik istiqamət aparıcı xətt olmuşdur. H.Böllün "Saat onun yarısında bilyard oyunu" (1959), P.Şallükün "Engelbert Reineke" (1959), Z.Lentsin "Yanğın söndürən gəmi" (1960) və s. Yazıçıların əsərləri yeni bir dövrün başlanğıcı hesab olunur. Bu dövr üçün səciyyəvi əlamətlərdən biri də poeziya və dram janrının böyük bir sıçrayışla inkişaf etməsidir.

Qərbi Almaniya ədəbiyyatının inkişafındakı üçüncü mərhələ 1968-1970-ci illərdə baş verən hadisələrlə bağlıdır. Bu dövrdə AFR-də siyasi qüvvələrin qütbləşməsi özünün ən yüksək nöqtəsinə çatmışdı. 1969-cu ildə Bundestaqa seçkilər zamanı neofaşist partiyasının milyon yarım səs toplaması, keçmişin təzədən təkrar olunması qorxusu, tələbə hərəkatı və nəhayət 1969-cu ilin noyabrında "sol koalisiyanın" – sosial-demokratlarla azad demokratların hakimiyyətə gəlməsi, AFR-in siyasi və mədəni həyatındakı yeni bir müsbət istiqamətin yaranması kimi mürəkkəb proseslər öz əksini məhz bu dövrün ədəbiyyatında tapdı.

Qərbi Almaniya ədəbiyyatı 1945-49-cu illərdə müxtəlif janrlarda inkişaf etmişdir. Düzdür, bu janrlar arasında nəsrin xüsusi çəkisi olmuşdur. Daha doğrusu, dövrün çoxşaxəli problemləri öz əksini nəsrdə daha real şəkildə tapmışdır. Lakin bununla bərabər, başqa janrlar da, o cümlədən poeziya və dramaturgiya da ictimai-siyasi həyata, xalqın indisinə və gələcəyinə biganə qalmamış, onun perspektivlərini müxtəlif bucaqlardan işıqlandırmağa çalışmışlar.

Hələ 1944-cü ildə faşistlərin göstərişi ilə Almaniyada, demək olar ki, bütün teatrlar bağlanmışdı. Müharibədən sonra onları açmaq istəyəndə məlum oldu ki, teatrlara çoxlu maddi ziyan dəyib. Qədim teatrların binaları, o cümlədən Mannheim və Vaymar Milli Tetrları yerlə yeksan olmuşdu. Təkcə Almaniyanın qərbində təxminən 60-a yaxın teatr dağıdılmışdı. Özünəməxsus teatr ənənələri olan Münxen, Dortmund, Hannofer və Hamburg səhnələri ya tamam dağılmış, ya da yararsız hala düşmüşdülər. Ancaq bununla belə, müharibədən sonrakı illərdə Almaniyada çoxlu tamaşalar göstərilir, dövrün tələblərini özündə əks etdirən səhnə əsərləri yaranırdı. O illərdə Almaniyada müxtəlif səhnə texnikasına, xüsusi quruluşa ehtiyacı olmayan kabare teatrları çox geniş yayılmışdı. Düzdür, istər küçə səhnələrində, istərsə də qısa müddət ərzində bərpa olunmuş teatrlarda, ən çox da Qərbi Berlindəki Hebbel teatrında daha çox "klassik" dramlar, məsələn, F.Volfun "Professor Mamlok", Georq Kayzerin "Əsgər Tanaka", Günter Vayzenbronun "Gizlilər", Rudolf Leonardonun "Girovlar", Bertold Brextin " Xanım Karrarın silahları" tamaşaları tez-tez göstərilirdi, ancaq bununla belə, real gerçəkliklə, müharibə və faşizmlə, gerçək yaşantılarla bağlı səhnə əsərlərində tələbat gündən-günə artırdı. Sonralar yuxarıda adları çəkilən "mühacirət dramları" səhnədən yavaş-yavaş çıxmağa başladı və 50-ci illərdə, demək olar ki, müharibə və faşizm mövzusu ilə bağlı olan pyeslər qərbi alman səhnəsində dominantlıq etməyə başladı.

Qərbi Almaniya ədəbiyyatında 1945-ci ildən sonra yaranmağa başlayan dram əsərlərinin müəllifləri çox az tanınan, bəlkə də heç tanınmayan gənc yazıçılar idi. Onların uğuru, hər şey-

dən əvvəl, öz yaşantılarını, faciələrini, çətinliklərini, ümidsizliklərini bədii şəkildə tamaşaçılara göstərməklə şərtlənirdi. Müharibə onların bütün illüziyalarını dağıtmış, çoxunu həm mənəvi, həm də fiziki cəhətdən şikəst etmişdi. Buna görə də onların süjetləri, konfliktləri üçün çıxış nöqtəsi əksər hallarda müharibənin sonu olurdu. Daha doğrusu, ya müharibədən, ya da əsirlikdən qayıdan gənc almanın taleyində müharibənin özü ilə ondan sonrakı dövr əks olunur, onun günahı, məsuliyyəti ön plana çəkilir və beləliklə də, bu prizmadan müxtəlif perspektivlər müəyyənləşdirilirdi. Həmin dövrdə Hansyörq Şmitthenerin, Fred Dengerin, Volfqanq Borxertin pyesləri ən çox göstərilən tamaşalar idi.

Hans Şmitthenerin "Bizlərdən biri" pyesinin süjeti müharibədən sonra baş verən bir hadisə üzərində qurulur. 1945-ci ildə, aprel ayında Almaniyanın cənubundakı həbs düşərgəsində 900 əsir var. Əksəriyyəti polyak və rumın olan bu əsirlər aclıqdan, xəstəlikdən zülüm çəkirlər. SS-çilər amerikan əsgərləri gəlməmişdən əvvəl onları öldürmək istəyir. Düşərgənin həkimi Robert Robçek bu işə mane olur və humanist hərəkəti ona həyatı bahasına başa gəlir. Robçek düşərgəyə lap son günlərdə gəlmişdi. Burada gördüklərindən dəhşətə gəlmişdi və SS-çilər məhbusların öldürülməsi barədə ona tapşırıq verəndə, tərəddüd etmədən vicdanının hökmünə qulaq asır, onlara qarşı çıxır. Bu zaman onun əsaslandığı yeganə dəyər bəşərin kamilləşməsinə olan inamdır. İnsanın kamilləşməsi, fəal humanist mövqe əsərdə həyatın mənası, faşizmə və müharibəyə alternativ dəyər kimi təsvir olunur. Məsuliyyət hissi və son anda düzgün qərar çıxarmaq bacarığı çağdaş dövrü və gələcəyi bu ideallar əsasında qurmaq üçün ən vacib şərtlər kimi təqdim olunur. Pyesdə həkimin daxili aləmində baş verən və qərar çıxararkən yeganə amilə çevrilən dəyişkənlik, müəllifə görə dünyanın, cəmiyyətin dəyişdirilməsinin yeganə açarıdır.

Fred Dengerin "Bizim adımız ümiddir" (1946) adlı pyesinin də əsas mövzusu bu dəyişkənlikdir. Əsərin qəhrəmanı Vayt əsirlikdən azad olunandan sonra vətənə qayıdır və keçmiş əsirlərdən, gənclərdən ibarət anarxist bir qrup yaradır. Bu qrupun şüarı belədir: "Əlinə nə keçirsə götür, çünki sənin hər şeyini götürüblər. Üzlərdəki maskaları yırt! Nifrət et!" [1, s.77]. Lakin məhəbbət onu öz hərəkətləri barədə düşünməyə məcbur edir.Vayt səhv yola düşdüyünü anlayır, yoldaşlarından da cəmiyyətə qarşı münasibətlərini dəyişməyi tələb edir. Denger bu əsərində müharibəni ittiham edir, çünki o insanın mənəvi-əxlaqi dünyasını pozur. Burada fərdin əxlaqı onun siyasi etirazının, eləcə də gələcəyə ümidinin çıxış nöqtəsinə çevrilir. Ayrı-ayrı adamların daxili aləmində baş verən təbəddülat, dəyişkənlik cəmiyyətin bütövlükdə yeniləşdirilməsinin əsas meyarı hesab olunur. Pyesin əsas qayəsi belə səslənir: "Sevməyi öyrənin! Özünüzü, başqalarını sevməyi öyrənin!" [1, s. 77].

Gənclərin taleyi və yaşlı nəslin bu tale üçün məsuliyyət daşıması məsələsi Denqerin" Aclıq? Bəli, aclıq!" [1, s. 77] pyesinin əsas mövzusudur. Əsərdə belə bir fikir təlqin olunur ki, gəncliyi müharibə dövrünə düşənlər cəmiyyəti dəyişməyə daha çox can atırlar, çünki ən çox qurban verənlər də, şikəst olanlar da məhz onlardır.

Şübhəsiz ki, Qərbi Almaniyada müharibədən sonrakı ilk illərin ədəbiyyatı Volfqanq Borxertin adı ilə bağlıdır (1921-1947). O müharibədə əsgər kimi iştirak etmiş, antifaşist çıxışlarına görə iki dəfə ölümə məhkum olunmuş, ancaq naməlum səbəblərdən hökm icra olunmamışdır. Sonralar amerikanlara əsir düşən V.Borxert müharibədən sonra xarabazara çevrilmiş vətəninə qayıtmışdır. Çəkdiyi mənəvi və fiziki əzablar, işgəncələr onu sağalmaz xəstəliyə düçar etmiş və V.Borxert çox erkən – 26 yaşında vəfat etmişdir.

Müharibədən sonra cəmi iki il yaşamış Borxertin ədəbi irsi çox da böyük olmamışdır: bir neçə şeir, bir neçə hekayə və yeganə bir pyes. Lakin "bir neçə" olmalarına baxmayaraq, istər hekayələri, istərsə də yeganə pyesi ona dünya şöhrəti qazandırmışdır. "Qapının çölündə qalan adam" (1947) pyesi dövrün psixoloji ovqatı ilə səsləşdiyindən böyük uğur qazanmışdı. Keçmiş serjant Bekman əsirlikdən sonra vətənə qayıdır. Günahsız ölən cəbhə yoldaşlarının xatirələri ona rahatlıq vermir, çünki onların faciəsində Bekmanın da payı var. Ancaq bundan əzab çəkən yalnız Bekmandır, əmrini icra etdiyi polkovnik isə indi "kürü yeyir", kiminsə ölümündə günahkar olduğu barədə heç düşünmür də. Bekmanın valideynləri də faşist olub və müharibədən son-

ra qorxudan intihar ediblər. Kimsəsizlik, tənhalıq içində boğulan Bekman vəziyyətdən çıxış yolu axtarır, ancaq hər yerdə biganəliklə, unutqanlıqla üzləşir. Beləliklə, Bekman hər yerdə "qapının çölündə" qalır. Əsərin əsas ideyası da məhz bu fikirlə inkişaf etdirilir: keçmişin "günahından" əzab çəkən, gələcək üçün məsuliyyət hiss edən bir gənci heç kəs başa düşmək istəmir. Bekman və onun kimilərinin faciəsi də elə ondadır ki, həmvətənlərinin çoxu hələ də yaxın keçmişdən ibrət dərsi almayıblar. Məhz onların bu cür biganəliyi, soyuqqanlılığı, kiminsə əlində alətə çevrilmələri 30-cu illərdə nasistlərin hakimiyyətə gəlmələrinə və beş il öncə milyonlarla günahsızın həyatını əlindən alan müharibənin başlanmasına səbəb olmuşdur. Deməli, tarix təkrar oluna bilər. V.Borxertin pyesinin əsas qayəsi də elə bu idi: xəbərdarlıq!

Karl Tsukmayerin (1896-1977) "Şeytan generalı" pyesi yazıçı Amerikada mühacirətdə olarkən müharibənin son illərində yazılmışdı və sonrakı ilk illərdə Qərbi Almaniya səhnəsində çox böyük uğur qazanmasının səbəbi, hər şeydən əvvəl, mövzusunun yeniliyi və aktuallığı ilə bağlı idi.

Antifaşist müqavimət hərəkatının naməlum əsgərinə həsr olunmuş bu pyesdə hadisələr təyyarə istehsal edən zavodlardan birində baş verir. Burada təşkil olunmuş "sobotaj" cəbhədə təyyarələrin qəzasına gətirib çıxarır. Lüftvaffenin generalı Harras təhqiqat nəticəsində kiçicik bir müqavimət qrupunun olduğunu hiss edir. Maraqlıdır ki, onun ən yaxın dostu baş mühəndis Oderbrux da bu dəstənin üzvüdür. İndi o, böyük bir sual qarşısında qalır: ya bu dəstəni ifşa etməli, ya da həqiqətlə barışmalıdır. General ikincini düzgün hesab edir və çıxış yolunu ölümündə tapır. Bilə-bilə nasaz təyyarələrdən birinə minir və təbii ki, qəzaya uğrayır.

General Harras obrazı ziddiyyətlidir. O, faşizmin mahiyyətini dərk edir, ancaq "sənətinə vurğunluğu" onu faşistlərlə işləməyə, onlara xidmət etməyə "məcbur edir". Faşistlərin "kiçik bir dünya müharibəsinə hazırlaşdığını bilsə də, onlarla işləyir. Beləliklə də, Harras necə deyərlər, öz faciəsinin təməlini qoyur.

Tsukmayerin qəhrəmanı Harrasın acınacaqlı taleyi və onun məntiqi faciəsi müharibədən sonrakı ilk illərdə sağ qalmış minlərlə almanın taleyi, eyni zamanda faciəsi idi. Məhz buna görə də V.Borxertin "Qapının çölündə qalan adam" pyesi ilə bərabər Tsukmayerin "Şeytan generalı" əsəri də dövrün ovqatını tutan bir tamaşa kimi uğur qazandı. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, xüsusilə bu iki əsər sonralar inkişaf edib dünya səhnələrini fəth edən alman pyeslərinin yaranmasının ilkin mərhələsi hesab oluna bilər.

Göründüyü kimi, müharibədən sonrakı ilk illərdə Qərbi Almaniya ədəbiyyatı çox əhatəli və rəngarəng olmuşdur. Həmin dövrün bütün çalarları, ziddiyyətləri, ümidsizlikləri, çaşqınlıqları və bütün bunlara baxmayaraq zəif də olsa gələcəyə inamları dram əsərlərində də öz əksini tapmışdır.

**Nəticə:** Müharibədən sonrakı ilk illərdə Qərbi Almaniya ədəbiyyatında dram janrı nümunələrinin qısa təhlili bəzən belə bir nəticəyə gəlməyə imkan verir ki, həmin dövrün problemləri öz bədii həllini daha çox dram və nəsr formalarında tapmışdır. Görünür müharibənin dəhşətini bütün ağırlıqları ilə öz çiyinlərində daşımış bu adamlar – tamaşaçılar, oxucular səhnədə həmin olayları bütün çılpaqlığı ilə bir daha görməsi, epik janrın imkanlarından istifadə olunaraq ictimai-psixoloji, mənəvi-əxlaqi durumun daha aydın, kəskin şəkildə ifadə olunması dram janrının inkişafı üçün zəmin yaratmışdır.

**İşin elmi yeniliyi:** Qərbi Almaniyada əlamətdar hadisələrə çevrilmiş II Dünya müharibəsindən sonrakı dövr dram əsərlərinin inkişaf mərhələləri, mövzuları və əsas təmayüllərinə toxunaraq bu dövrün ədəbi proseslərinə müasir mədəniyyət və mənəvi-ruhi həyatın bir hissəsi kimi aydınlıq gətirir. Dram strategiyaları müxtəlif mövzular üzərində işləyərkən xüsusilə faydalıdır, çünki o fənlər arasında körpü yaradır və elmi tərəqqinin fərdlərə və icmalara necə təsir göstərə biləcəyi kimi insan ölçüsünü işıqlandırır.

**İşin tətbiqi əhəmiyyəti:** Tələbələri II Dünya müharibəsindən sonrakı dövrdə Qərbi Almaniya dramaturgiyası, onun nümayəndələri və nümunələri ilə tanış etmək. Dramatik əlamətlər haqqında zəruri biliklər vermək.

Bakalavr, magistr və alman dramaturgiyası ilə maraqlanan hər bir şəxs üçün əyani vəsait və istinad mənbəyi ola bilər.

Analiz etdiyi hər bir dram əsərinin tələbənin özünə inamlı, kompleksdən uzaq bir şəxsiyyət kimi formalaşmasına xidmət edə bilər.

**Ədəbiyyat**


1. Geschichte der deutschen Literatur der Bundesrepublik Deutschland Volk und Wissen. – Berlin: VEB, – 1983.
2. Deutsche Literaturgeschichte. (Von den Anfangen bis zur Gegenwart) Stuttgart: Metzler, – 1989. – 622 s.
3. Braun, M. Die deutsche Gegenwartsliteratur / Michael Braun. Böhlau Verlag Köln, – 2010. – 247 s.
4. Drama und Theater der Gegenwart / Herausgegeben von Jan Standke. WVT Wissenschaftlicher Verlag Trier, – 2021.
5. Hansen, S. Tendenzen der deutschsprachigen Gegenwartsliteratur / S.Hansen, J.Thielsen. – Berlin, – 2018. – 185 s.
6. История литературы ФРГ. / Редакционная коллегия: Д.В.Затонский, Н.С. Павлова, И.М. Фрадкин (отв. редактор). – Москва: Наука, – 1980. – 688 с.


**R.V.Vakilova**

**The Main Subject Area of West Germany Drama in the Early Post-World-War Years**

***Summary***

The article is devoted to the peculiarities of the development of literature in the Federative Republic of Germany in afterwar period.

The social-political situation and literary environment in Germany after World War II are considered in the article. The literary works of this period described the events during and after the war and the difficulties that people had to face. The works of drama were especially developed at that time. The research of the literary specifics of drama works is of special importance in the article.

The dramas of Carl Zuckmayer, Bertholt Brecht, Wolfgang Borchert, Fred Denger, Hansjorg Schmitthenner written in antiwar and anti-fascist spirit, played an important role in drama development of that period.

***Key words:*** *war, drama, West Germany, fascism, internal migration*

**Р.В.Вакилова**

**Основная тематика западногерманской драматургии на раннем этапе послевоенного периода**

***Резюме***

Данная статья посвящена особенностям развития литературы Федеративной Республики Германии в послевоенный период. Здесь исследуются общественное-политическая обстановка, а также социальная и литературная среда в период после 2 мировой войны в Германии. События, происходившия во время и после войны, а также трудности, с которыми столкнулись народы мира, ярко описаны в художественных произведениях этого периода. Особое развитие получили драматические произведения. Значительное место в статье уделяется исследованию идейно-художественных особенностей произведений, написанных в жанре драма.

Драмы Карла Цукмайера, Бертольта Брехта, Вольфганга Борхерта, Фреда Дэнгера, Хансйорга Шмиттеннера, написанные в антивоенном и антифашистском духе, сыграли большую роль в развитии драматургии этого периода.

***Ключевые слова:*** *война, драма, Западная Германия, фашизм, внутренняя миграция*

*Rəyçi: prof., fil.f.d. A.Z.Sabitova*

*Redaksiyaya daxil olub: 06.11.2024*